Salam əziz dost Cemma. Öncəliklə yazdığın məktuba və sülh mesajına görə təşəkkür edirəm. Mənim adım Turandı. 20 yaşım var. İqtisadiyat ixtisası üzrə  təhsil alıram.

Sənin məktubunu və digər məktubları oxudum və sizin kimi intellektual bir gənclər ilə uzaqdan da olsa tanış olduğum üçün sevinirəm. İndi isə keçək əsas mövzuya .

İlk olaraq bu münaqişədə hər iki tərəfdən itkilər həddən artıq çox olub və buna gərək yox idi. Mənim əmim oğlu  Samir Ağayev  bu münaqişədə 2010 cu il mart ayının 23 də şəhid oldu və bu məni və ailəmi dərindən yaraladı . Təbii ki, ilk zamanlar məndə sizə qarşı həddən artıq aqressiya yarandı amma sonradan artıq həm Erməni gənclərin və həm də Azərbaycan gənclərinin ölümünün əbəs yerə olduğunu gördüm . Əgər o gənclər yaşasa idi indi bəlkə ölkəmiz üçün daha gözəl ideyalar yarada bilər və ya nələrisə kəşf edə bilərdi , elmə , cəmiyyətə töhfə verə bilərdi . Təssüf oldu , baş verdi amma artıq olmasın , əminəm ki, müharibəni, insan itkisini nə siz , nədə ki biz istəyirik .

İkinci məsələ isə odur ki, bu münaqişə həddən  artıq iki ölkə üçün də xərcə  səbəb olmuşdur.  Əgər o orduya ayrılan vəsait rifahın artırılmasına, təhsilə, səhiyyəyə yönəlsə idi , insanlarımız daha yaxşı həyat səviyəsinə malik olardı .

Mən də sizin kimi sülh istəyirəm və artıq iki ölkə üçün qurulmuş bu oyunun bitməsini istəyirəm. Bu oyun çox qurban və xərc apardı amma artıq yetər.

Oyunu dayandırmağın vaxtıdı və bu oyunu davam etdirib öz mənafelərini və ciblərini güdən yüksək vəzifəli şəxslərin və ölkələrin planını pozmalıyıq.

Mənim üçün sənin milliyətinin bir önəmi yoxdu. Mən səni 19 yaşında Erməni Cemma kimi deyil, 19 yaşlı sülhsevər, humanist , səmimi qəlbli Cemma kimi tanıdım.  Ümid edirəm ki, bir gün sənlə görüşüb bu fikirlərimizi qarşılıqlı şəkildə müzakirə edəcəyik ...

Hörmətlə, sülh istəyən gənc

Turan